# Camşed ŞOİMZODA: "Azərbaycanın yaratdığı Mərkəzi Asiya-Avropa nəqliyyat dəhlizləri Tacikistan üçün yeni imkanlar açır"



**Unikal su və hidroenerji ehtiyatlarına malik olan Tacikistan iqlim dəyişikliyi ilə bağlı ciddi çağırışlarla üzləşir. Qlobal istiləşmə və ölkənin şirin su ehtiyatlarının böyük hissəsinin cəmləşdiyi dağlıq bölgələrdə buzlaqların sürətlə əriməsi şəraitində resursların dayanıqlı idarə edilməsi məsələsi xüsusilə aktuallaşır. Mərkəzi Asiyanın əsas ölkələrindən biri olan Tacikistan təkcə yeni çağırışlara uyğunlaşmağa deyil, həm də iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq əməkdaşlıqda fəal iştirak etməyə çalışır.**

**Bakıda keçirilən COP29 konfransı çərçivəsində Tacikistan Respublikasının energetika və su ehtiyatları nazirinin birinci müavini Camşed Şoimzoda "Report" agentliyinə eksklüziv müsahibəsində ölkəsinin buzlaqların əriməsi ilə necə mübarizə apardığı, su ehtiyatlarının dayanıqlı idarə edilməsi üçün hansı təşəbbüslərin həyata keçirildiyi və regional əməkdaşlığın niyə böyük əhəmiyyət kəsb etməsi barədə danışıb. Söhbət zamanı həmçinin energetika sahəsində Tacikistan-Azərbaycan əməkdaşlığının perspektivləri və iqlim maliyyələşdirilməsinin vaxtında həyata keçirilməsinin əhəmiyyəti də müzakirə edilib.**

- *Tacikistan iqlim dəyişikliyi şəraitində su ehtiyatları sahəsində hansı çağırışlarla qarşı-qarşıyadır?*

- Tacikistan su ehtiyatlarına görə ən zəngin Mərkəzi Asiya ölkəsidir. Biz bütün Mərkəzi Asiyanın su ehtiyatlarının 60 faizini formalaşdırırıq və çaylarımız region üçün mühüm rol oynayır. Lakin vəziyyət birmənalı deyil. Tacikistanın cənub hissəsi çayların yuxarı axarında yerləşir ki, bu çaylar da tamamilə burada formalaşır və region ölkələrini su ilə təmin edir. Şimalda isə biz artıq çayların aşağı axarında yerləşirik və digər ölkələrdən daxil olan su ehtiyatlarından qismən asılıyıq.

İqlim dəyişiklikləri artıq ciddi təsir göstərir və buzlaqların əriməsi xüsusi təhlükə yaradır. Ölkəmizin 93 faizi dağlarla əhatə olunub və Tacikistan haqlı olaraq buzlaqların vətəni adlandırılır. Burada dünyanın ən böyük kontinental buzlağı yerləşir. Lakin iqlim dəyişikliyi səbəbindən son 30 ildə ölkə mindən çox mikrobuzlaq itirib. Bu, regionun su balansına əhəmiyyətli təsir göstərən bərpaolunmaz itkilərdir. Bununla əlaqədar təcili tədbirlər görülməlidir.

-*Tacikistan iqlim dəyişikliyi ilə mübarizə istiqamətində hansı səylər göstərir və regional əməkdaşlıq nə dərəcədə vacibdir?*

- Tacikistan üçün iqlim dəyişikliyi, sadəcə, dəbdə olan bir mövzu deyil, hər gün üzləşdiyimiz sərt reallıqdır. Onların mənfi təsiri xüsusilə su ehtiyatları vasitəsilə hiss olunur. Son beş il iqlim dəyişikliyinin məhz su vasitəsilə necə gücləndiyini göstərir. Statistikaya görə, qlobal iqlim dəyişikliyinin təsirlərinin 74 faizi su ilə əlaqəlidir, Tacikistanda isə bu göstərici 80 faizdən yüksəkdir.

Belə çağırışlar şəraitində ölkəmiz iqlim proseslərini fəal şəkildə öyrənir və adaptasiya tədbirləri görür. Lakin iqlim dəyişikliyinin təsirlərini aradan qaldırmaq üçün yalnız milli səylər kifayət deyil. Regional və qlobal xarakter daşıyan problemlər ölkələrin səylərinin birləşdirilməsini tələb edir.

Maliyyə dəstəyi, ekoloji təşəbbüslər və infrastrukturun inkişafını özündə ehtiva edən dəqiq əməkdaşlıq mexanizmlərinin işlənib hazırlanması son dərəcə vacibdir. Yalnız resursların və təcrübənin birləşdirilməsi yolu ilə iqlim dəyişikliyi ilə səmərəli mübarizə aparmaq və yeni reallıqlara uyğunlaşmaq mümkündür.

- *İnkişaf etmiş ölkələr iqlim dəyişikliyi ilə mübarizəyə kifayət qədər maliyyə vəsaiti ayırırmı və bu vəsait nə dərəcədə ədalətli bölüşdürülüb?*

- Tədbirin təşkilatçısı kimi Azərbaycan diqqəti haqlı olaraq maliyyələşdirmə məsələlərinə yönəldib və biz bu mövqeyi tam dəstəkləyirik. Təəssüf ki, iqlim maliyyələşdirilməsində ciddi problemlər mövcuddur. Beynəlxalq maliyyə tərəfdaşları vəsaitlərin ayrılması ilə bağlı gurultulu bəyanatlar versələr də, onların ölkələrə verilməsi prosesi çox vaxt gecikir. Nəticədə pullar ünvanlarına çatanda bir çox adaptasiya tədbirləri artıq köhnəlmiş olur.

COP29 Baku Azerbaijan



Azərbaycan.- 2024.- 21 noyabr (№ 256).- S.11.